Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F.Köçərli adına Respublika
Uşaq Kitabxanası

F.Köçərli adına Respublika Uşaq Kitabxanasının
yaranmasının 50 illiyinə həsr edilmişdir

# Uşaq Hüquqları

**Respublika Uşaq Kitabxanaları**
**üçün tövsiyə biblioqrafiyası**

**Bakı-2015**

Tərtibçi: **Nazilə Tahirova**

Redaktor və
buraxılışa məsul: **Şəhla Qəmbərova**

**Uşaq hüquqları:** tövsiyə biblioqrafiyası /tərt. ed. N.Tahirova; red. və bur. məs. Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2015.- 39s.

**©F.Köçərli adına Respublika Uşaq Kitabxanası, 2015**

## TƏRTİBÇİDƏN

Azərbaycanda uşaqlarla bağlı siyasətin əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur. Ulu öndərin təşəbbüsü ilə önəmli beynəlxalq konvensiya və protokollar ratifikasiya edilərək qüvvəyə minmişdir. Ölkəmiz müstəqillik əldə etdikdən sonra ilk qoşulduğu beynəlxalq sənədlər arasında uşaqlarla bağlı olanları da var. Azərbaycan 1992-ci ildə BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyasına, 2002-ci ildə isə Konvensiyanın iki əlavə protokoluna qoşulub.

Bu gün Ulu öndərin siyasi kursu Prezident İlham Əliyev cənabları tərəfindən uğurla davam etdirilir. Belə ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 22 dekabr 2008-ci il tarixli 103 nömrəli Sərəncamı ilə 2009-cu ilin "Uşaq ili" elan edilməsi uşaqların vəziyyətinin yaxşılaşdırılması, uşaq hüquqlarının müdafiəsinin gücləndirilməsi baxımından yeni bir mərhələ açdı.

Bütün bunları nəzərə alaraq Firidun bəy Köçərli adına Respublika Uşaq kitabxanasının Ölkəşünaslıq və milli ədəbiyyat şöbəsi kitabxananın 50 illik yubleyi münasibəti ilə tövsiyə biblioqrafiyas;hazırlamışdır.

Geniş oxucu kütləsi üçün nəzərdə tutulan göstərici tövsiyə olunan ədəbiyyatdan ibarətdir. Girişdə mövzu haqqında ətraflı məlumat verilmişdir.

Tövsiyə göstəricisində kitablarda, məcmuə və dövri mətbuat səhifələrində dərc edilmiş materiallar Azərbaycan və rus dillərində öz əksini tapmışdır. Vəsaitdə ədəbiyyat xronoloji prinsip əsasında daxildə isə əlifba sırasına uyğun olaraq qruplaşdırılmışdır.

Nəşrlə bağlı arzu və rəylərini bildirəcək hər bir mütəxəssisə və oxucuya əvvəlcədən minnətdarlığımızı bildiririk.

**Ünvan:** Bakı şəh., S.Vurğun küç.88;
**E-mail:** childlibbaku@yahoo.com

**“Uşaqlar bizim sevincimiz, xoşbəxtliyimiz, cəmiyyətin gələcəyidir. Ona görə də, hər bir insanpərvər cəmiyyətdə uşaqlara daim xüsusi qayğı, xüsusi diqqət göstərilməlidir.”**

**Heydər Əliyev,**
*ümummilli lider*

## Giriş

Qanunvericiliyə əsasən 18 yaşına çatmayanlar uşaq hesab olunur. Statistikaya görə Azərbaycanda 2.800.000-dən çox uşaq var. 18 yaşadək uşaqlar ölkə əhalisinin 29 faizini təşkil edir.

Azərbaycanda uşaqlarla bağlı siyasətin əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur. Ulu öndərin təşəbbüsü ilə önəmli beynəlxalq konvensiya və protokollar ratifikasiya edilərək qüvvəyə minmişdir. Ölkəmiz müstəqillik əldə etdikdən sonra ilk qoşulduğu beynəlxalq sənədlər arasında uşaqlarla bağlı olanları da var. Azərbaycan 1992-ci ildə BMT-nin “Uşaq hüquqları haqqında” Konvensiyasına, 2002-ci ildə isə konvensiyanın iki əlavə protokoluna qoşulub.

Uşaq Hüquqları Konvensiyası uşaq hüquqları sahəsində qəbul edilmiş sənədlərlə müqayisədə ən dolğun və bu hüquqların beynəlxalq hüquq normaları qüvvəsində qəbul olunmuş ilk sənəddir. Konvensiyada insan hüquqlarının tərkib hissəsi kimi uşaqlar üçün bəyan edilmiş hüquqlar şərti olaraq 4 qrupa bölünür:

**Yaşamaq hüququ** – uşaqların yaşamaq hüququnu və yaşamaq üçün zəruri olan tələbatlarını əhatə edir. Bura müvafiq həyat standartları – sığınacaq, qida və tibbi yardım almaq imkanları daxildir.

**İnkişaf hüququ** – özünün ən yüksək inkişaf potensialına nail olmaq üçün uşaqların ehtiyacları olduğu hüquq və azadlıqlardan ibarətdir. Bura daxildir: təhsil hüququ, asudə vaxt, oyunlar,

mədəni fəaliyyət, informasiya almaq azadlığı, habelə fikir, vicdan və dini əqidə azadlığı.

**Müdafiə hüququ** – uşağın pis rəftardan, hörmətsizlikdən, istismardan müdafiəsini təşkil edir. Bu hüquqlar qrupu qaçqın uşaqlara xüsusi qayğı göstərilməsi, onların silahlı münaqişələrə cəlb edilməsi, narkotik maddələrdən istifadə, uşaq əməyi, habelə uşaqların cinsi, seksual istismarı kimi məsələləri əhatə edir.

**İştirak etmək hüququ** – uşaqlara öz cəmiyyət və təşkilatlarında iştirak etməyə, birləşməyə imkan verir. Bu hüquqlar qrupu aşağıdakı azadlıqları əhatə edir: fikri sərbəst ifadə etmə, öz həyatı barədə rəy söyləmə, ictimai təşkilatlara qoşulma, dinc yığıncaqlar keçirmə. Bu hüquqlar qrupu uşaqlara öz qabiliyyətləri qədərində cəmiyyətin həyatında iştirak etməyə imkan verir, habelə onlara fəal vətəndaş vərdişlərini aşılayır.

Konvensiya uşaqların əsas hüquqlarını təmin etsə də, o heç də valideynləri uşaqlar üçün nəyin yaxşı olduğuna qərar vermək hüququndan məhrum etmir. Əksinə Konvensiya, valideynlərə uşaqları böyütmək və inkişaf etdirmək kimi ən əsas vəzifələrini yerinə yetirməyə çağırır. Uşaq hüquqlarının təbliği onları yaşlı insanlarla, valideynlərlə qarşı-qarşıya qoymaq və aralarında münaqişə yaratmaq məqsədini daşımır. O ,bütün vətəndaşları uşaqların sağlam, təhlükəsiz və produktiv gələcəyi üçün çalışmağa çağırır.

*Cəmiyyətdə davranış qaydalarına əməl etmək, Azərbaycan Respublikasının dövlət rəmizlərinə bələd olmaq, biliklərə yiyələnmək, özünü faydalı fəaliyyətə hazırlamaq, valideynlərə, digər vətəndaşların hüquq və mənafelərinə, öz xalqının və başqa xalqların ənənələrinə və mədəni sərvətlərinə hörmətlə yanaşmaq, tarix və mədəniyyət abidələrini, ətraf mühiti qorumaq və Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək uşağın borcudur.*

*Bu vəzifələrin uşaqlar tərəfindən dərk edilməsinə və icrasına valideynlərin, müvafiq orqanların və təhsil müəssisələrinin uşaqlar arasında izahat və təbliğat aparmaları yolu ilə nail olunur.*

1998-ci ildə ölkəmizdə BMT-nin “Uşaq Hüquqları haqqında” Konvensiyasının müddəalarını özündə əks etdirən V fəsil 45 maddədən ibarət “Uşaq Hüquqları haqqında” Qanun qəbul edilmişdir. 1999-cu ildə isə 10 maddədən ibarət “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” qanun qəbul edilmişdir.

Bunların ardınca ölkəmizdə həyata keçirilən irimiqyaslı hüquq islahatları insan hüquqlarının tərkib hissəsi kimi uşaq hüquqları sahəsində də yeniliklərin əldə olunmasına, uşaqlarla işləyən qurumların yaradılmasına, həmçinin əhalinin müxtəlif qruplarından biri kimi uşaqların da pozulmuş hüquqlarının bərpasına çalışan Ombudsman təsisatının yaranmasına şərait yarandı.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) vəzifəsi Azərbaycan Respublikası Konstitusiyasında və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit olunmuş Azərbaycan Respublikasının dövlət və yerli özünüidarə orqanları, vəzifəli şəxsləri tərəfindən pozulan insan hüquq və azadlıqlarının bərpa edilməsi üçün təsis edilir.

Hal-hazırda Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) tərəfindən onun Aparatında uşaq hüquqları sahəsində işləyən müşavir, həmçinin Ombudsmanın regional mərkəzlərinin rəhbərləri bu istiqamət üzrə əlaqələndirici şəxslər təyin edilmişlər.

Ombudsmanın təşəbbüsü ilə 2013-cü ildə “Uşaq hüquqları” aylığı başa çatmışdır, 2014-cü ildə “Mənim hüquq və vəzifələrim”, 2015-ci ildə “Uşaq hüquqları üzrə pilləli tədris davam etdiriləcək” və s. mövzularında tədbirlər keçirilmişdir.

Müvəkkilin fəaliyyət göstərdiyi müddətində əhalinin maarifləndirilməsi məqsədi ilə bir sıra nəşrlər hazırlanmış və çap olunmuşdur. “Cəzaçəkmə müəssisələrində olan yetkinlik yaşına çatmayanların hüquqları” adlı broşurları, “Uşaq hüquqları üzrə pilləli tədris”lə bağlı dərs vəsaiti, bir sıra tematik lefletlər hazırlanmış və çap olunmuşdur:

**• Hüquqların pozulubsa İnsan Hüquqları üzrə Müvəkkilə (Ombudsmana) müraciət et;**

**• İnsan Hüquqları Ümumi Bəyannaməsi və Azərbaycan Respublikasının Konstitusiyası;**

**• Sizin əsas hüquq və azadlıqlarınız;**

**• Zərər çəkmiş şəxsin hüquqi vəziyyəti;**

**• Şubhəli şəxsin hüquqi vəziyyəti;**

**• Xüsusi ittihamçı və mülki iddiaçının hüquqi vəziyyəti;**

**• Təqsirləndirilən şəxsin hüquqi vəziyyəti;**

**• "Ombudsman kimdir?" adlı yaddaş vərəqəsi.**

Bütün bunlar ölkəmizdə dövlət siyasətinin tərkib hissəsi kimi əhalinin müxtəlif kateqoriyalarından biri olan uşaqların hüquqlarının müdafiəsinə, pozulmuş hüquqlarının bərpasına və onlar üçün normal həyat şəraitinin yaradılmasına xidmət edir.

Bu gün Ulu öndərin siyasi kursu Prezident İlham Əliyev cənabları tərəfindən uğurla davam etdirilir. Uşaq hüquqlarının müdafiəsi uşaqların normal formalaşmasına, sağlam böyüməsinə yönələn bir çox dövlət proqramları qəbul edilərək onların həyata keçirilməsi məqsədi ilə tədbirlər planı müəyyənləşdirilmişdir. Hər bir dövlət proqramı uşaqların hüquq və maraqlarının müdafiəsi, vahid dövlət uşaq siyasətinin formalaşması, tənzimlənməsi və həyata keçirilməsi, uşaqların fiziki, əqli, mənəvi, əxlaqi və sosial inkişafı üçün lazımi həyat səviyyəsinin təmin olunması sahəsində milli konsepsiyanı inkişaf etdirməyə yönəlmişdir.

1 iyun 1950-ci ildə BMT Baş Assambleyası tərəfindən təşkil olunan "Qadınların Beynəlxalq Konfransı"nda uşaq hüquqlarının təmin edilməsilə bağlı təskliflər səslənib və elə həmin tədbirdə də 1 iyun tarixini uşaqların beynəlxalq müdafiəsinə həsr etmək qərarı verilib. Bundan sonra iyunun 1-i Uşaqları Beynəlxalq Müdafiə Günü kimi tarixə düşüb. Dünyanın əksər ölkələrində olduğu kimi, bu gün Azərbaycanda da qeyd edilir.

Azərbaycan 1992-ci ildən BMT-nin Uşaq Hüquqları Konvensiyasına qoşulub. Məhz bu sənəd də uşaqların hansı dövlətdə

yaşamalarından asılı olmayaraq, onların hüquqlarını tam əhatə edir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 22 dekabr 2008-ci il tarixli 103 nömrəli Sərəncamı ilə 2009-cu ilin "Uşaq ili" elan edilməsi uşaqların vəziyyətinin yaxşılaşdırılması, uşaq hüquqlarının müdafiəsinin gücləndirilməsi baxımından yeni bir mərhələ açdı.

2009-cu ilin "Uşaq ili" elan edilməsi ilə bağlı tədbirlər planının təsdiq edilməsi isə uşaq hüquqları sahəsində təhsil, bu sahədə müvafiq dərs vəsaitlərinin hazırlanması, xüsusi qayğıya ehtiyacı olan uşaqların vəziyyətinin yaxşılaşdırılması ilə bağlı tədbirlərin də həyata keçirilməsi üçün müvafiq dövlət qurumları qarşısında vəzifələr müəyyən etdi.

Təqdirəlayiq haldır ki, ölkə Prezidentinin Sərəncamı ilə 2009-cu ilin "Uşaq ili" elan edilməsi və müvafiq Tədbirlər Planının təsdiq edilməsi ilə dövlət qurumlarının irimiqyaslı tədbirlər keçirməyə istiqamətləndirilməsi hazırda qeyd olunan sahədə ölkəmizdə daha uğurlu nəticələrin əldə olunmasına və uşaq hüquqları sahəsində dövlət siyasətinin məqsədyönlü həyata keçirilməsinə geniş imkanlar açır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 8 may 2012-ci il tarixli Fərmanı ilə "Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası"nı təsdiq edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 6 fevral 2006-cı il tarixli Fərmanı ilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradılmış və Prezidentin 6 fevral 2006-cı il tarixli Sərəncamı ilə Hicran Hüseynova Komitənin sədri təyin edilmişdir. Komitə fəaliyyət göstərdiyi dövr ərzində bu sahədə mövcud olan problemlərin həlli istiqamətində məqsədyönlü fəaliyyət göstərmişdir.

Belə ki, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Heydər Əliyev Fondu və UNICEF-lə birgə uşaqların öz hüquqları ilə bağlı qərarların qəbul edilməsində iştirakını təmin etmək, uşaqlara öz problemləri ilə bağlı təşəbbüslərlə çıxış etmək

və təkliflər vermək imkanı yaratmaq, həmçinin ictimaiyyətin diqqətinin uşaq hüquqlarının qorunmasına yönəldilməsi məqsədilə 2009-cu ildə Azərbaycan Uşaqlarının I və 2011-ci ildə Azərbaycan Uşaqlarının II, 2012-ci il noyabırın 17-də isə III Ümumrespublika Forumu keçirilmişdir. Forum zamanı nümayəndələr aşağıdakı mövzular üzrə qruplaşaraq həmin mövzu ətrafında dövlət nümayəndələrinin iştirakı ilə müzakirələr aparıb, müvafiq təklif və tövsiyələrlə çıxış ediblər:

I qrup: Vətəni sevək və ona layiq olaq;

II qrup: Uşaqlar üçün bərabər hüquq və imkanlar;

III qrup: Təhsildə yeni standartların tətbiqi. Uşaqlar və internet təhlükəsizliyi;

IV qrup: Ətraf mühitin mühafizəsi. Sağlam həyat tərzi;

V qrup: Asudə vaxtın səmərəli təşkili və dəyərləndirilməsi;

VI qrup: Uşaqların şəxsiyyət kimi formalaşmasında ailə və cəmiyyətin rolu və məsuliyyəti;

VII qrup: Qarabağ həqiqətlərini dünyaya çatdıraq.

Təklif və tövsiyələr, həmçinin mövzular braşuralar şəklində çap olunaraq müvafiq təşkilatlara göndərilmişdir.


I QRUP
VƏTƏNİ SEVƏK VƏ ONA LAYİQ OLAQ


II QRUP
UŞAQLAR ÜÇÜN BƏRABƏR HÜQUQ VƏ İMKANLAR


III QRUP
TƏHSİLDƏ YENİ STANDARTLARIN TƏTBİQİ. UŞAQLAR VƏ İNTERNET TƏHLÜKƏSİZLİYİ


IV QRUP
ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ. SAĞLAM HƏYAT TƏRZİ










Forumlar ölkə üzrə bütün şəhər və rayonları təmsil edən uşaqların iştirakı ilə keçirilmişdir. Ötən müddət ərzində Forumlarda iştirak edən uşaqlar tərəfindən səsləndirilən bütün təkliflər hökumət tərəfindən hazırlanan müxtəlif proqramlarda öz əksini tapmışdır. Forum həm də əsas verir ki, hər bir uşaq onu düşündürən, narahat edən məsələləri dilə gətirsin, problemlərin birgə həlli yollarını araşdırsın. Məhz bu Forumlar istedadlı uşaqların üzə çıxmasında mühüm rola malikdir.

Forumlar uşaqların öz bacarıqlarını nümayiş etdirmək üçün bir vasitəyə çevrilmişdir. Həmçinin Forum uşaqların ictimai fəallığının artırılmasında, iştirak hüququnun təmin edilməsində və liderlik keyfiyyətlərinin formalaşmasında mühüm əhəmiyyətə malikdir.

Bütün bunlarla yanaşı Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi mütəmadi olaraq uşaq hüquqları ilə bağlı öz nəşirlərini də çap etdirir.


UŞAQLARI
QORUYAQ!


YARAT
1 İYUN -
UŞAQLARIN BEYNƏLXALQ
MÜDAFİƏSİ GÜNÜ


UŞAQLIĞIMI
ƏLİMDƏN
ALMAYIN!


Azərbaycanda
ölkələrarası
övladlığa götürmə

Bu isə dünya təcrübəsinə və uşaq hüquqlarının inkişaf tarixinə ölkəmiz tərəfindən verilən daha bir töhfə, daha bir yenilikdir.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi 2015-2025-ci illəri əhatə edən Milli Uşaq Strategiyası hazırlayaraq hökumətə təqdim edib. Sənəd ölkə prezidentinin fərmanı ilə təsdiqlənmiş "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf konsepsiyasına uyğun olaraq hazırlanıb. Strategiya hazırlanarkən BMT-nin Uşaq Hüquqları Komitəsinin tövsiyələri də nəzərə alınıb.

Sənəddə uşaqların hüquqlarının erkən yaşda müdafiəsi, qanunvericiliklə bağlı bazanın təkmilləşdirilməsi, yerli səviyyədə uşaq müdafiə sistemində olan boşluqların doldurulması, yerlərdə uşaqların hüquqlarının müdafiəsi ilə məşğul olan yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyaların fəaliyyətlərinin gücləndirilməsi, uşaqların sağlamlığı və erkən uşaqlıq dövrü ilə bağlı müəyyən məsələlər öz əksini tapıb. Sənəddə məktəbəqədər təhsil müəssisələrinin şəbəkəsinin genişləndirilməsi, sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə inteqrasiyası, onlar üçün icma əsaslı sosial reabilitasiya mərkəzlərinin yaradılması, inteqrasiyalı təhsilin təşkili, uşaq paralimpiyasının inkişafı və digər məsələlər öz əksini tapıb.

Bu sahədə aparılan işlərdən danışarkən Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyevanın fəaliyyətini xüsusi olaraq vurğulamaq lazımdır. Məhz Mehriban xanımın rəhbərliyi altında Heydər Əliyev Fondu uşaqların təhsili, sağlamlığı ilə bağlı iri layihələrə imza atmışdır.

Bu gün hər bir uşaq öz üzərində dövlət qayğısını hiss edir. Uşaqlara göstərilən diqqət və qayğının artırılması üçün cəmiyyətin hər bir üzvü bütün gücünü səfərbər etməlidir.

## Uşaq Hüquqları haqqında
## Azərbaycan Respublikasının Qanunu

Bu Qanun Azərbaycan Respublikasının Konstitusiyasına, Uşaq Hüquqları Bəyannaməsinə, Uşaq Hüquqlarına dair Konvensiyaya və digər beynəlxalq hüquq normalarına uyğun olaraq Azərbaycan Respublikasında uşaqların hüquqlarını və azadlıqlarını, uşaqlar barəsində dövlət siyasətinin əsas pirinsiplərini, onların müdafiəsi sahəsində dövlət orqanlarının, digər hüquqi və fiziki şəxslərin vəzifələrini müəyyən edir.

### I Fəsil. Ümumi müddəalar

**Maddə 1. Qanunun təsir dairəsi**

Uşaqların bu Qanunda nəzərdə tutulmuş hüquqları və vəzifələri 18 yaşına (yetkinlik yaşına) çatmayan və tam fəaliyyət qabiliyyəti əldə etməyən hər bir şəxsə aid edilir.

**Maddə 2. Uşaq hüquqları barəsində qanunvericilik**

Uşaq hüquqları barəsində qanunvericilik bu Qanundan və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarından ibarətdir. Digər normativ hüqqi aktların normaları uşaqların bu Qanunla müəyyən edilmiş hüquq və azadlıqlarını məhdudlaşdıra bilməz.

**Maddə 3. Uşaqlar barəsində dövlət siyasəti**

Uşaqlar barəsində dövlət siyasəti hər bir uşağın zəruri maddi və məişət şəraitində böyüyüb tərbiyə olunmasının, mütərəqqi tələblər əsasında təhsil almasının, layiqli vətəndaş kimi formalaşmasının təmin edilməsinə yönəldilir.

Dövlət siyasəti milli və yerli xüsusiyyətlər nəzərə alınmaqla yaradılmış məqsədli uşaq sosial proqramları əsasında həyata keçirilir. Bu proqramların yerinə yetirilməsində dövlət orqanları ilə yanaşı digər hüquqi və fiziki şəxslər də iştirak edə bilərlər.

**Maddə 4. Uşaq hüquqlarını müdafiə edən orqanlar, birliklər və təşkilatatlar**

Azərbaycan Respublikasında uşaq hüquqlarının müdafiəsini müvafiq icra hakimiyyəti, məhkəmə və prokurorluq orqanları, bələdiyyələr, habelə ictimai birliklər, həmkarlar ittifaqı təşkilatları təmin etməlidirlər. Bu orqanlar, birliklər və təşkilatlar fəaliyyətlərində uşaq hüquqlarının üstün mühafizəsi pirinsipini əsas tutmalıdırlar.

**Maddə 5. Uşaq mənafelərinin üstünlüyü**

Dövlət orqanları, bütün fiziki və hüquqi şəxslər öz fəaliyyətində uşaqların mənafelərini üstün tutmalı, onların hüquqlarının təmin olunmasına şərait yaratmalıdırlar. Azərbaycan Respublikasının normativ hüquqi aktları və müvafiq orqanların qərarları uşaq mənafelərinə zidd olmamalı və onların icrası uşaqların həyatına, inkişafına və tərbiyəsinə zərər gətirməməlidir. Uşağın hüquq və mənafelərini məhdudlaşdıran hər hansı əqd etibarsızdır.

**Maddə 6. Uşaqların hüquq bərabərliyi**

Bütün uşaqlar bərabər hüquqlara malikdirlər. Uşaqların, onların valideynlərinin və ya onları əvəz edən şəxslərin sosial və əmlak vəziyyətindən, sağlamlığından, irqi və milli mənsubiyyətindən, dilindən, təhsilindən, dinindən, siyasi baxışlarından, yaşayış yerindən asılı olmayaraq uşaqlar ayrı seçkiliyə məruz qala bilməzlər. Uşaqlar valideynlərinin və ya onları əvəz edən digər şəxslərin hərəkətlərinə görə məsuliyyət daşımır və valideynləri ilə bağlı səbəblərə görə onların hüquqlarının məhdudlaşdırılmasına yol verilmir.

Nigahda və ya nigahdankənar doğulmasından asılı olmayaraq uşaqların valideynləri barəsində eyni hüquqları vardır.

**Maddə 7. Uşağın nümayəndələri**

Uşağın valideynləri, eləcə də övladlığa götürənlər, qəyyumlar, himayəçilər, uşaq evlərinin müdiriyyəti uşaqların hüquq və mənafelərini müdafiə edən nümayəndələridir.

**Maddə 8. Uşağın yaşamaq və inkişaf etmək hüququ**

Hər bir uşağın yaşamaq, normal şəraitdə fiziki, əqli və mənəvi cəhətdən inkişaf etmək hüququ vardır. Dövlət bu şəraiti təmin edən iqtisadi, sosial-hüquqi və digər tədbirlər görməyi, sağlam və təhlükəsiz mühit yaratmağı öz öhdəsinə götürür.

**Maddə 9. Uşağın həyatı və sağlamlığının mühafizəsi hüququ**

Hər bir uşağın həyatı və sağlamlığının mühafizə edilməsi hüququ vardır. Dövlət uşaqların həyatının mühafizəsi və sağlam inkişafını təmin edir, ekoloji təhlükəsizliyini təmin edən şərait yaradır, onların keyfiyyətli yeməklə, içməli təmiz su ilə təchizi üçün müvafiq tədbirlər görür.

**Maddə 10. Uşağın ad və vətəndaşlıq almaq hüququ**

Hər bir uşaq doğulduqdan sonra Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq qeydiyyata alınır və vətəndaşlıq əldə edir.

Uşağa ad valideynlərin qarşılıqlı razılığı ilə, valideynləri olmadıqda isə qəyyumluq orqanlarının razılığı və ya göstərişi əsasında verilir.

**Maddə 11. Uşağın tərbiyə almaq hüququ**

Hər bir uşağın hərtərəfli inkişaf etmək, milli və ümumbəşəri dəyərlərə uyğun, humanizm və əxlaqi pirinsiplər əsasında tərbiyə almaq hüququ vardır.

Uşağın tərbiyəsi ailədə, məktəbdə, məktəbəqədər və məktəbdənkənar uşaq təlim-tərbiyə müəssisələrində aparılır.

**Maddə 12. Uşağın azadlıq və şəxsi toxunulmazlıq hüququ**

Uşaq azadlıq və şəxsi toxunulmazlıq hüququna malikdir.

Uşaqların hüquqları və qanuni mənafeləri pozulduqda, o cümlədən valideynləri uşağın təhsili, tərbiyəsi üzrə vəzifələrini yerinə yetirmədikdə və ya valideynlik hüquqlarından sui-istifadə etdikdə uşaq öz hüquqlarını qorumaq üçün müvafiq icra hakimiyyəti orqanlarına, 14 yaşına çatdıqda isə məhkəməyə müraciət etmək hüququna malikdir.

**Maddə 13. Uşağın zəruri maddi təminat hüququ**

Uşağın Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş minimum dolanacaq xərclərindən az olmayan maddi təminat almaq hüququ vardır.

**Maddə 14. Uşağın vicdan, fikir və söz azadlığı**

Hər bir uşağın, fikir və söz azadlığı vardır.

Valideynlər, digər şəxslər və dövlət orqanları uşağın vicdan, fikir və söz azadlığına hörmətlə yanaşmalıdırlar.

Uşağın səhhətində zərərli təsir göstərən dini ayinlərin icrasına cəlb edilməsi qadağandır.

**Maddə 15. Uşağın məlumat azadlığı**

Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq hər bir uşağın əqli və fiziki inkişafı üçün zəruri olan istənilən məlumatı axtarmaq, əldə etmək, ötürmək və yaymaq hüququ vardır.

**Maddə 16. Uşağın əsas vəzifələri**

Cəmiyyətdə davranış qaydalarına əməl etmək, Azərbaycan Respublikasının dövlət rəmizlərinə bələd olmaq, biliklərə yiyələnmək, özünü faydalı fəaliyyətə hazırlamaq, valideynlərə, digər vətəndaşların hüquq və mənafelərinə, öz xalqının və başqa xalqların ənənələrinə və mədəni sərvətlərinə hörmətlə yanaşmaq, tarix və mədəniyyət abidələrini, ətraf mühiti qorumaq və Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək uşağın borcudur.

Bu vəzifələrin uşaqlar tərəfindən dərk edilməsinə və icrasına valideynlərin, müvafiq orqanların və təhsil müəssisələrinin uşaqlar arasında izahat və təbliğat aparmaları yolu ilə nail olunur.

## II Fəsil. Uşaq və ailə

**Maddə 17. Uşağın ailədə yaşamaq hüququ**

Uşağın ailədə valideynləri ilə birgə yaşamaq, onlardan qayğı görmək hüququ vardır. Qanunvericiliklə nəzərdə tutulmuş hallar-

dan başqa valideynlərin istəyinə zidd olaraq uşağı onlardan ayırmaq qadağandır.

**Maddə 18. Valideynlərindən ayrı yaşayan uşağın hüququ**

Valideynlərinin hər ikisindən və ya birindən ayrı yaşayan uşağın onları tanımaq, habelə bu ona mənfi təsir göstərmirsə, valideynləri ilə ünsiyyətdə olmaq hüququ vardır.

**Maddə 19. Valideynlərin hüquq və vəzifələri**

Valideynlərin uşağın tərbiyəsində bərabər hüquq və vəzifələri vardır. Onlar uşağı sağlam böyütməli, ümumbəşəri və milli dəyərlər əsasında tərbiyə etməli, müstəqil həyata hazırlamalıdırlar. Uşağın qabiliyyətinin inkişaf etdirilməsi, onun maddi və mənəvi tələbatlarının təmin edilməsi, hüquq və mənafelərinin mühafizəsi valideynlərin əsas vəzifələridir.

Valideynlərin uşaqlar barəsində hüquq və vəzifələrinin həyata keçirilməsinə dövlət orqanlarının qarışmasına yalnız qanunla nəzərdə tutulmuş hallarda və uşağın maraqları naminə yol verilə bilər.

Uşağın vurduğu maddi ziyana görə onun valideynləri, övladlığa götürənlər, qəyyumlar və ya himayəçilər Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

**Maddə 20. Uşağın mənzil hüququ**

Hər bir uşağın mənzil hüququ vardır. Uşaqların yaşadıqları mənzil sahəsinə ailənin digər üzvləri ilə bərabər hüquqları vardır.

**Maddə 21. Uşağın vərəsəlik və valideynlərinin əmlakı hesabına saxlanma hüququ**

Hər bir uşağın valideynlərinin, övladlığa götürülənlərin əmlakına dair vərəsəlik, məhkəmənin qərarı ilə valideynlərdən hər ikisi və ya biri xəbərsiz itkin düşmüş və ya ölmüş elan edildikdə isə onların əmlakı hesabına saxlanmaq hüququ vardır.

## III Fəsil. Uşaq və Cəmiyyət

**Maddə 22. Uşağın təhsil almaq hüququ**

Hər bir uşağın Azərbaycan Respublikasının təhsil qanunvericiliyinə uyğun olaraq təhsil almaq hüququ vardır.

Dövlət təhsil sistemi uşağın şəxsiyyətinin inkişafına, zəruri bilik və bacarıqları tam həcmdə əldə etməsinə şərait yaratmalıdır. Uşaqların icbari ümumi orta təhsildən yayındırılması qadağandır.

**Maddə 23. Fitri istedada malik uşaqlara dövlət qayğısı**

Dövlət fitri istedada malik uşaqların erkən yaşdan üzə çıxarılması və onların qabiliyyətinin qiymətləndirilməsi üçün tədbirlər görür, onlar üçün adlı və xüsusi təqaüdlər müəyyən edir, xüsusi təhsil müəssisələrinin sistemini yaradır və maliyyələşdirir, bu sahədə beynəlxalq əlaqələri inkişaf etdirir.

**Maddə 24. Uşağın əmək hüquqları**

Uşaqların yaşına, səhhətinə, ümumtəhsil və peşə hazırlığı səviyyəsinə uyğun olaraq əmək hüququ vardır.

Uşaqların əmək hüququnun yaranmasının və həyata keçirilməsinin şərtləri Azərbaycan Respublikasının əmək qanunvericiliyi ilə müəyyən edilir.

**Maddə 25. Uşağın istirahət hüququ**

Hər bir uşağın istirahət və asudə vaxtdan istifadə etmək hüququ vardır.

**Maddə 26. Uşaqların ictimai təşkilatlarda birləşmək hüququ**

Uşaqların təhsil və ya yaşayış yerlərində Azərbaycan Respublikasının qanunvericiliyində müəyən edilmiş qaydada ictimai birliklər və ictimai özfəaliyyət orqanları yaratmaq və onlarda birləşmək hüququ vardır.

**Maddə 27.Uşağın şərəf və ləyaqətinin müdafiəsi hüququ**

Hər bir uşağın şərəf və ləyaqətini müdafiə etmək hüququ vardır.

Uşaqların şərəf və ləyaqətinə qəsd edilməsi Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş məsuliyyətə səbəb olur.

**Maddə 28. Uşağın istismardan və zərərli təsirlərdən mühafizəsi**

Dövlət sosial, hüquqi, iqtisadi, tibbi və tərbiyəvi vasitələrlə uşaqları istismarın bütün növlərindən, ağır, zərərli və təhlükəli əməkdən və təsirlərdən mühafizə edir.

**Maddə 29. Uşaqlara sosial yardımlar**

Dövlət uşaqlara birdəfəlik ödəmələr, aylıq müavinətlər, kompensasiyalar formasında sosial yardımlar verir.

Sosial yardımlar uşaqların mənafelərinə uyğun sərf olunmalıdır.

## IV Fəsil. Əlverişsiz şəraitə düşmüş uşaqların müdafiəsi

**Maddə 30. Əlverişsiz şəraitdə yaşayan uşaqların müdafiəsi üzrə dövlət proqramları**

Dövlət hərbi əməliyyatlar, epidemiya, təbii və ekoloji fəlakətlər zonasında yaşayan və ya onların təsirinə məruz qalan, habelə yetim uşaqların, natamam (valideynlərdən biri olmayan), aztəminatlı ailələrin uşaqlarının, şəhid uşaqlarının müdafiəsini xüsusi proqramlar əsasında təmin edir.

**Maddə 31. Valideyn himayəsindən məhrum olmuş uşaqların müdafiəsi tədbirləri**

Valideyn himayəsindən məhrum olmuş uşaqların müdafiəsi onların övladlığa, qəyyumluğa, himayəçiliyə, digər ailəyə verilməsi, bunlar mümkün olmadıqda isə uşaqlara baxan müvafiq müəssisələrdə yerləşdirilməsi üsulu ilə təmin edilir.

Müdafiə üsulu müəyyən edilərkən uşağın etnik mənşəyi, dini və mədəni mənsubiyyəti, dili, tərbiyəsinin varisliyi nəzərə alınmalıdır.

Uşaq müəssisələrində saxlanan valideyn himayəsindən məhrum olmuş uşaqlar tam dövlət təminatındadırlar. Onlar Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş güzəşt və imtiyazlardan istifadə edirlər.

**Maddə 32. Övladlığa götürmə**

Uşağın övladlığa götürülməsinə onun mənafeyi naminə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada yol verilir. Övladlığa götürən şəxs uşağın normal inkişa-

fi və tərbiyəsi üçün müvafiq imkanlara malik olmalıdır. Şəxsi mənfəət əldə etmək məqsədilə uşağın övladlığa götürülməsi qadağandır. Övladlığa götürənin sirri dövlət tərəfindən qorunur.

Azərbaycan Respublikasının vətəndaşı olan uşağın əcnəbilər tərəfindən övladlığa götürülməsinin, habelə Azərbaycan Respublikası vətəndaşının əcnəbi uşağı övladlığa götürməsinin qaydaları dövlətlərarası müqavilələr və Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilir.

**Maddə 33. İnternat müəssisələrində uşaqların saxlanmasının və tərbiyəsinin şərtləri**

Uşaq evlərində, internat tipli uşaq müəssisələrində uşaqların təlim-tərbiyəsinin təşkili və keyfiyyətinə görə həmin müəssisələrin rəhbərləri məsuliyyət daşıyırlar.

**Maddə 34. İnternat müəssisələri məzunlarının müdafiəsi**

İnternat müəssisələrinin valideyn himayəsindən məhrum olmuş məzunlarının hüquq və mənafelərinin müdafiəsi bu müəssisələrin rəhbərləri və himayə orqanları tərəfindən həyata keçirilir.

Yaşayış sahəsi olmayan məzunların yetkinlik yaşına çatana qədər bu müəssisələrdə qalmasına icazə verilir.

**Maddə 35. Əlil, əqli və fiziki çatışmazlıqları olan uşaqların müdafiəsi**

Əlil, əqli və fiziki çatışmazlıqları olan uşaqların növbədənkənar, müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş qaydada tibbi, defektoloji və psixoloji yardım almaq hüququ vardır.

**Maddə 36. Əlil uşağa qulluq edən şəxslərə verilən güzəştlər**

16 yaşınadək əlil uşağa qulluq dövrü pensiya hüququ verən iş stajına daxil edilir və uşağa qulluq edən şəxsə Azərbaycan Respublikasinin qanunvericiliyində müəyyən edilmiş məbləğdə müavinət ödənilir.

**Maddə 37. Hərbi münaqişələr dövründə uşaqların müdafiəsi**

Azərbaycan dövləti onun hərbi münaqişələrə cəlb edildiyi ərazidə olan uşaqların müdafiəsinin beynəlxalq hüquqi normalara uyğun olaraq təmin etməyi öz üzərinə götürür.

**Maddə 38. Təbii fəlakətlər, bədbəxt hadisələr və qəzalar nəticəsində zərər çəkmiş uşaqların müdafiəsi**

Dövlət təbii fəlakətlər, bədbəxt hadisə və qəzalar nəticəsində əlverişsiz şəraitə düşmüş və ya zərər çəkmiş uşaqlara təcili əvəzsiz kömək göstərir, onların təhlükəsiz yerlərə köçürülməsi üçün təxirəsalınmaz tədbirlər görür.

**Maddə 39. Qaçqın və ya məcburi köçkün uşaqların müdafiəsi**

Qaçqın və ya məcburi köçkün olan uşaqların müvafiq status almaq hüququ vardır. Dövlət onları lazımi müdafiə və humanitar yardımla təmin etmək üçün təcili müvafiq tədbirlər görür, belə uşaqların valideynlərinin axtarılmasını təşkil edir, bu məqsədlə beynəlxalq təşkilatlarla əməkdaşlıq edir, qeyri-dövlət təşkilatlarının fəaliyyətinə zəruri köməklik göstərir.

**Maddə 39.1 Uşaqların baxımsızlığının və hüquq pozuntularının profilaktikası**

Dövlət qanunvericiliklə müəyyən edilmiş qaydada uşaqların baxımsızlığının və hüquq pozuntularının profilaktikasını həyata keçirir.

